Salmanlı Rəhman.Xatirəyə dönən qəhrəman ömrü // Azərbaycan : qəzet. - 2022. - 14 avqust. - № 172. - S. 5.

Dövlət başçısının cari ilin ötən ayları ərzində imzaladığı sərəncamlara əsasən, ölkə vətəndaşlarının sosial rifah şəraitinin daha da yaxşılaşdırılması məqsədilə ardıcıl və çoxtərəfli sosial islahatların növbəti mərhələsinə başlanılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Dövlət Turizm Agentliyinin dəstəyi ilə "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı" layihəsi çərçivəsində turizm potensialı yüksək olan Naxçıvan Muxtar Respublikasında, Quba, Qusar, Xaçmaz, Şəki, Zaqatala, Qax, Lənkəran, Astara, Lerik, Göygöl, Gədəbəy rayonlarında kənd qonaq evləri kimi fəaliyyət göstərəcək yeni sahibkarlıq subyektləri yaradılır. Kənd turizminin inkişafına və kəndlərdə məşğulluğa dəstək məqsədi daşıyan layihənin yeni mərhələsində həmin rayonlarda turistlər üçün kənd qonaq evləri kimi fəaliyyət göstərəcək 50 sahibkarlıq subyektinin təsis olunması nəzərdə tutulur. Bunun üçün ilk növbədə uyğun namizədlərin seçimi aparılıb və onlar turizm - xidmət sahələri üzrə müvafiq biliklərə yiyələnmələri üçün təlimlərə cəlb olunublar. Turizm obyekti kimi istifadə olunacaq ərazidə təmir işləri aparılıb. Son mərhələ olaraq, həmin namizədlərə Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramının aqroturizm zərfi üzrə qonaq evi üçün lazım olan avadanlıqların (divan, kreslo, stol-stul və yataq dəstləri, mebel avadanlıqları, soyuducu, kondisioner, mətbəx ləvazimatları, televizor və s. ) verilməsinə başlanıb.

Bu layihənin ilk mərhələsi olaraq, ötən il İsmayıllı rayonunda 15 kənd qonaq evi yaradılaraq avadanlıqlarla təchiz olunub. 15 ailə üzrə 40 nəfərin məşğulluğu təmin edilib. Bu da onların ailə büdcəsinə xeyli kömək deməkdir. Həmçinin 300-ə yaxın kənd sakini sahibkarlıq və özünüməşğulluq imkanları barədə məlumatlandırılıb.

Əhalinin sosial müdafiəsi istiqamətində digər işlər də görülüb. ƏƏSMN-nin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində bir il əvvəl yaradılan məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial reabilitasiyası şöbəsi fəaliyyət göstərir. Yaxınlarından, birgə yaşadığı şəxslərdən şiddət və zorakılıq görən insanlar məhz həyatının çətin məqamında sosial dəstək üçün etimad göstərib müraciət edə biləcəyi ünvanı axtarırlar. Həmin müəssisə belə şəxslər üçün etimad ünvanıdır. Burada reabilitasiya olunan şəxslər müasir standartlara uyğun şəraitdə sosial xidmətlərlə, sosial-hüquqi və psixoloji dəstəklə əhatə olunurlar. Hazırda şöbədə 45 şəxsin reabilitasiyası işləri aparılır.

Xatırladaq ki, 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə genişmiqyaslı sosial dəstək tədbirlərinin bir istiqaməti kimi şəhid ailələri və müharibə

iştirakçılarından ibarət 13,5 min şəxs aktiv məşğulluq proqramlarına, o cümlədən 8 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. Bu günlərdə Dövlət Məşğulluq Agentliyi tərəfindən Vətən müharibəsi iştirakçıları və şəhid ailəsi üzvlərindən ibarət daha 65 şəxs peşə hazırlığı kurslarına cəlb edilib. Kurslar əmək bazarının tələblərinə uyğun peşələr üzrə təşkil olunub. Peşə hazırlığına cəlb olunan işsiz şəxslərə kurs keçdiyi dövrdə agentlik tərəfindən minimum əməkhaqqı məbləğində aylıq təqaüd ödənilir. Peşə kurslarını başa vuranların isə məşğulluğunun təmin olunması işləri aparılır.

Dövlət başçısının tapşırıq və tövsiyələri əsasında son illər aparılan köklü sosial islahatlar insanların rifahının yaxşılaşmasına istiqamətlənib. Bu islahatlar sosial ödənişlərin, o cümlədən Prezidentin aylıq təqaüdü ilə təmin olunanların da əhatə dairəsini xeyli genişləndirib. 2022-ci ilin 1 iyul tarixinə Prezidentin aylıq təqaüdü ilə təmin edilən şəxslərin sayı ötən ilin müvafiq dövrünə (286,7 min nəfər) nisbətən 26,3 faiz, 4 il əvvələ (58 min nəfər) nisbətən isə 6,2 dəfə artaraq 362 min nəfərə çatıb.

Son 4 ildə sosial ödənişlərin ciddi şəkildə artırılması ilə yanaşı, yeni təqaüd növləri də yaradılıb: müharibə veteranları, birinci dərəcə əlilliyi olan şəxslərə və əlilliyi olan 18 yaşadək şəxslərə qulluq edənlər, digər kateqoriyalar üçün aylıq təqaüdlər təsis olunub. Eyni zamanda 44 günlük Vətən müharibəsindən sonra sosial dəstək tədbirləri çərçivəsində həmin müharibənin şəhidlərinin ailə üzvləri, Vətən müharibəsinin veteranları, o cümlədən Vətən müharibəsi əlillərindən ibarət 94 min şəxsə 104 min sosial ödəniş təyin olunub. Həmin ödənişlərin mühüm hissəsini Prezidentin aylıq təqaüdləri təşkil edib.

Onu da qeyd edək ki, dövlətimizin İkinci Qarabağ müharibəsi ilə yanaşı, Birinci Qarabağ müharibəsi əlillərinə də diqqət və qayğısı davamlıdır. Artıq Nazirlər Kabinetinin yeni təsdiq etdiyi qaydaya uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələrin verilməsinə başlanılıb. Birdəfəlik ödəmənin məbləği: I dərəcə əlilliyə görə - 8. 800 manat, II dərəcə əlilliyə görə - 6.600 manat, III dərəcə əlilliyə görə - 4.400 manatdır.

Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, hərbi ekspert, polkovnik Cəlil Xəlilov deyir ki, artıq  ilkin olaraq sənədləri e-sistemində olan 11 minədək müharibə əlilinə proaktiv qaydada ödəmə təyin olunaraq bank hesablarına köçürülüb.

Cari ilin 6 ayında Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində ötən ilin müvafiq dövrünə nisbətən 7,3 faiz artım olub. Sistemli sosial-iqtisadi islahatların nəticəsi kimi qeyri-leqal məşğulluğun azalması dinamikası, məşğulluq imkanlarının, əməkhaqlarının ardıcıl artımı sosial sığorta daxilolmalarının da davamlı artımına imkan yaradıb.  DSMF gəlirlərində sosial sığorta daxilolmalarının son 6 ayda 21

faiz artımı buna bariz nümunədir. Həmin daxilolmalarda davamlı artım və fondun fəaliyyətinin optimallaşdırılması, şəffaflığın təminatı dövlət büdcəsindən dövlət öhdəliklərinin ödənilməsi üçün DSMF-yə transfer məbləğinin də 2022-ci ilin yanvar-iyun aylarında 8,55 faiz azalmasına imkan verib. Ümumilikdə son 4 ildə sosial ödənişlərin davamlı artımına baxmayaraq, dövlət büdcəsindən transfert məbləğinin DSMF büdcəsində payı 4 il əvvəlki 38 faizdən 17,6 faiz azalmaqla fondun tarixində ilk dəfə olaraq 20,42 faizə enib.

2022-ci ilin yanvar-iyun aylarında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 4,5 faiz (104 milyon manat) çox olmaqla 2 milyard 443 milyon manat vəsait yönəldilib. Bu ilin əvvəlindən növbəti artım olaraq, minimum aylıq pensiya daha 20 faiz artırılaraq 240 manata çatdırılıb. 2022-ci ilin əvvəlindən pensiyaların sığorta hissəsi indeksləşdirilib və sığorta prinsipi ilə pensiya alanlara bu il üzrə 200 manat maddi yardım ayrılıb. Habelə qulluq stajına görə əlavələr alan pensiyaçılara bu ilin əvvəlindən pensiyalarının 10 faizi məbləğində aylıq maddi yardım ödənilir. Həmin artımlar üçün illik 440 milyon manat əlavə vəsait ayrılıb.

Bildirək ki, son 6 ayda pensiyaların orta aylıq məbləği 11 faizədək artaraq 364 manata, yaşa görə orta aylıq pensiya isə 10,2 faiz artaraq 395 manata çatıb. 2019-cu ilin əvvəlindən pensiya, müavinət və təqaüd təyinatları elektronlaşdırılıb. Ötən dövrdə 64 mini pensiya, qalanı müavinət və təqaüd olan 430 min, o cümlədən bu ilin yanvar-iyun aylarında 15,6 mini pensiya, qalanı müavinət və təqaüd olan 160 min təyinat proaktiv olaraq e-qaydada aparılıb. Sosial təminat növləri (pensiya, müavinət, təqaüd, ünvanlı dövlət sosial yardımı) üzrə ödənişlərdə artım dinamikası 2022-ci ilin 6 ayında da davam edib. Dövlət Sosial Müdafiə Fondu tərəfindən bu ilin birinci yarımili ərzində həmin sosial təminat növləri üzrə əhaliyə 3 milyard 247 milyon manat vəsait ödənilib. Bu da ötən ilin eyni dövrünə nisbətən 7,8 faiz və ya 235,3 milyon manat çoxdur.

Görünən odur ki, həyata keçirilən dövlət proqramları, aparılan islahatlar, reallaşdırılan layihələr və bir çox sosialyönümlü tədbirlərin məqsədi ölkə əhalisinin rifah halının yaxşılaşdırılmasına istiqamətlənib.